## “Dövlət avtomatlaşdırılmış informasiya sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi haqqında Təlimat”a dəyişikliklər edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

## Q Ə R A R I

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 1803 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən “Seçkilər” İnformasiya Mərkəzi Komissiya Katibliyinin tərkibinə daxil edilmiş və həmin Sərəncamın icrası məqsədi ilə Mərkəzi Seçki Komissiyası 23 dekabr 2011-ci il tarixli 17/54 saylı qərarı ilə Mərkəzi Seçki Komissiyası Katibliyinin struktur və ştat vahidlərində dəyişikliklər etmişdir.

Bununla əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyası 16 iyul 2003-cü il tarixli 15/87 saylı Qərarı ilə təsdiq edilmiş “Dövlət avtomatlaşdırılmış informasiya sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi haqqında Təlimat”a müvafiq dəyişiklik etməli və onu Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərməlidir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.1-ci və 75.2-ci maddələrinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 9 dekabr 2011-ci il tarixli 15/50 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən normativ xarakterli aktların hazırlanması və qəbul edilməsi Qaydaları”nın 3.4-cü bəndinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 16 iyul 2003-cü il tarixli 15/87 saylı Qərarı ilə təsdiq edilmiş “Dövlət avtomatlaşdırılmış informasiya sistemindən seçkilərdə (referendumda) istifadə edilməsi haqqında Təlimat”a aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü bənddə “nəzdində fəaliyyət göstərən “Seçkilər” və “Seçkilər” sözləri müvafiq olaraq “Katibliyinin” sözü ilə əvəz edilsin;

1.2. 4-cü və 11-ci bəndlərdə “Seçkilər” sözü “Katibliyinin” sözü ilə əvəz edilsin.

2. Təlimat edilmiş dəyişikliklərlə birlikdə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün qanunla müəyyən edilmiş müddətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |